**Qısa, amma şərəfli həyat yolu, vaxtsız və qürur verən ölüm, amansız və geridə qalanlara başucalığı gətirən ayrılıq... Allahın dərgahında ən ali məqam, və ölümlərin ən gözəli... Şəhidlik... Vətən torpaqlarının işğaldan azadlığı yolunda canını, qanını verərək onun bir parçasına çevrilmək. Amma... Nə yazıq ki, bu yolda ammalarsız ötüşmədik.**

**Yanıb külə dönən igidlərin, müayinələrlə tanınan oğulların, aylarla tapılmayan nəşlərin yaxınlarının, doğmalarının söhbətini dinləmək daha ağırdır. Analar bala itirəndə şair olurmuşlar, söz qoşurmuşlar, dastan bağlayırmışlar... İllah da ki, balanın şəhadət xəbəri gələ, özü yox. Gecə-gündüz Allaha yalvarasan ki, ya Rəbbim, balamın ölüsünü mənə yetir, dünya gözü ilə onu görüm. Ağlayıb ürəyimi boşaltmağa bir məzar yerini mənə çox görmə, Allahım.**



# Analar oğul itirəndə qəmli dastan bağlayırmışlar...

Şəhid anası Rüxsarə Məmmədova beləcə yanıb-yaxılır: “Biləsən ki, qəza oldu, ağır yaralandı, ya yerində öldü, ya xəstəxanada. Biləsən ki, xəstələndi, müalicə etdirdin, sağalmadı, öldü. Biləsən ki, qəfil ürəyi dayandı, beyninə qan sızdı, ya yataqda öldü, ya qucağında. Aylar sonra, hətta il tamamında nəşi tapılan şəhidlərimizin ana-ataları, yaxınları nələr çəkir indi? Necə öldü, yaralanıb günlərlə əzab-əziyyətmi çəkdi? Bir gülləyə, bir mərmiyə qurbanmı getdi? Ac-susuzmu qaldı? Nələr hiss etdi? Bu fikirlər adamı yaşatmaz! Hər gün düşündükcə ölüb-dirilirik. Yeganə kiçik bacısı gözünü yollardan yığa bilmir, “hər şey yuxudur” – deyir. Allahdan bütün şəhidlərin əzizlərinə səbr diləyirəm”.

...Məmmədov Pərvin Natiq oğlu 2001-ci il avqustun 4-də Xaçmaz rayonunun Şıxlar kəndində anadan olmuşdu. O, Xaçmazın Alekseyevka kəndindəki tam orta məktəbdə təhsil alıb. Dərslərini yaxşı oxumaqla, nizam-intizamı ilə seçilməklə yanaşı, usaqlıqdan cüdo idman növü ilə məşğul olub. Orta məktəbdə oxuyarkən müxtəlif idman yarışlarında iştirak edib və evə hər yarışdan üzüağ dönüb. Cüdo yarışlarında müxtəlif medal və fəxri fərmanlarla təltif edilib.

Atası Natiq Məmmədov Birinci Qarabağ savaşının iştirakçısı olub. Onun müharibə ilə bağlı söhbətlərinə qulaq asa-asa böyüyən Pərvində lap kiçik yaşlarından erməniyə nifrət hissi baş qaldırıb. O, “Yenə müharibə olsa, mən də sənin kimi o davada iştirak edəcəyəm. Əlbəyaxa döyüş olsa, onların dizini yerə qoyaram, ata. Vətən torpaqlarının azadlığı uğrunda döyüşməkdən gözəl nə ola bilər ki?” – deyirmiş.

Hələ onun nə yaşı vardı ki... Pərvin 2019-cu il oktyabrın 2-də həqiqi hərbi xidmətə Vətən borcunu ödəməyə yollanıb. Ermənilə sərhəddə – Goranboyda xidmət keçib. Hər dəfə valideynləri ilə danışanda “kaş imkan verəydilər, keçib o tərəfdə bir-ikisini gəbərdəydim” – deyirmiş.

...Sən saydığını say, gör, fələk nə sayır? Pərvin haradan biləydi ki, çox keçməmiş o da silaha sarılıb döyüş meydanına atılacaq. Hərbi xidmətini başa vurmamış Ermənistanın sərhədlərimizdə törətdiyi təxribatlarına qarşı əks-hücumun başlanması haqqında əmr veriləcək. Beləliklə, həqiqi hərbi xidməti başa çatmayan Pərvin digər əsgər yoldaşları ilə birlikdə 2020-ci ilin 27 sentyabrından İkinci Qarabağ müharibəsinin iştirakçısı olur.

Döyüş yoldaşlarının danışdıqlarına görə, Pərvin yaşına uyğun gəlməyən döyüş bacarığı ilə seçilib. Çünki o, özünü uşaqlıqdan bu vuruşa hazırlamışdı. Cəldliyi, döyüşkənliyi, hər əmrə anında tabe olub tapşırıqları yerinə yetirməsi onu silahdaşlarının və komandirlərin gözündə ucaldıb. 19 yaşlı gəncin sərrast atışları ilə neçə erməni cəhənnəmə vasil olub. Hər erməni yerə sərildikdən sonra sevincindən “birini də gəbərtdim” – deyə qışqırırmış. Dostları deyirlər ki, Pərvinin səsi gələndə bir erməninin də məhv edildiyini anlayırdıq. Onun sevincini duymamaq mümkün deyildi. “İnşallah, müharibəni bitirib mən də evə sağ-salamat dönəcəyəm və atama deyəcəyəm ki, sizin Birinci Qarabağ savaşında verdiyiniz şəhidlərin də qisasını aldıq”.

Amma Pərvin qayıda bilmədi. Oktyabrın 1-də Suqovuşanın işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhid oldu. Taleyə bax ki, Pərvinin meyitini atəş zonasından çıxara bilmədilər. Çünki o, atəş aça-aça xeyli irəliləmiş və orada düşmən gülləsinə tuş gəlmişdi.

Valideynlər günlərlə xəbər gözlədilər. Kənd əhli, rayon camaatı hər gün onlara təskinliyə gəlsə də, ata-ananın gözü yollardan yığılmadı. Torpaqlar azad edildikcə, ərazilərdə meyitlərin axtarışı davam edirdi. Şəhadətindən 60 gün sonra, noyabrın 28-də Pərvinin nəşi tapılaraq ailəsinə təhvil verildi.

Azəbaycan Prezidentinin sərəncamları ilə Pərvin Məmmədov ölümündən sonra “Suqovusanın azad olunmasına görə”, “Cəsur döyüşçü” və “Vətən uğrunda” medalları ilə təltif olunmuşdur. Atası Pərvinin adına Şıxlar kəndində bulaq çəkdirib. Bulağın açılış mərasimində Şıxlar kənd bələdiyyəsinin üzvləri, Alekseyevka kənd məktəbinin direktoru, şəhidin müəllimləri, sinif yoldaşları və kənd sakinləri iştirak ediblər. Çıxış edənlər Vətən müharibəsi şəhidlərinin daim əbədi yaşayacaqlarını, onların ailə üzvlərinin problemlərini daim diqqətdə saxlayacaqlarını, Pərvinin xatirəsini daim hörmətlə yad edəcəklərini bildiriblər. Şəhidin ruhuna dualar oxunub, Allahdan rəhmət diləyiblər.

2021-ci il avqustun 4-də şəhidin onsuz keçən ad günündə Xaçmaz Rayon İcra Hakimiyyətindən və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xaçmaz rayon İdarəsindən onların ailəsini ziyarətə gəliblər. Pərvinin hələ indi 20 yaşı tamam olurdu. Onlar ailənin qayğıları ilə maraqlanıb, ata-anaya təskinlik verib, səbr diləyib, şəhidin ruhuna dualar oxuyublar.

Anası Rüxsarə Məmmədova deyir ki, oğlumdan mənə ancaq onun xatirələri qaldı, bir də cüdo yarışlarında qazandığı 1, 2, 3-cü yerlərin medalları. “O, mənim gözümün ilk ovu idi, tək oğlum idi. Balam nə yaşadı ki, nə də yuxu görəydi? Gənc ömrü yarıda qırıldı. Bircə təsəllimiz var ki, Pərvin canını Vətən torpaqlarının azadlığı yolunda qurban verdi. Deyirdim, biz dünyadan köçəndə yeganə bacısına dayaq olacaq. Olammadı”...

Başını dik tut, şəhid anası! Unutma, bu torpaq Pərvin kimi oğullarla tanınır! Çünki şəhidlərimizin qanı qarışan torpağın hər qarışı Vətən olur!

*Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”*